2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 27 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 28 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 51 saylı Qusar seçki dairəsindən Mucuq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rəhimxanov Alik Süvləddin oğlunun 51 saylı Qusar seçki dairəsinin 41 saylı seçki məntəqəsində 41 saylı seçki məntəqəsində bəzi qanun pozuntularının baş verməsinə dair 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 35 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 51 saylı Qusar seçki dairəsindən Mucuq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rəhimxanov Alik Süvləddin oğlunun 51 saylı Qusar seçki dairəsinin 41 saylı seçki məntəqəsi üzrə bəzi qanun pozuntularının baş verməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 27 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov